## İNCƏSƏNƏT

**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2024.2.279**

**ƏLİ QƏHRƏMANOV**

# ŞƏMİL MUSTAFAYEVİN RƏNGLƏR DÜNYASINA ELMİ-NƏZƏRİ BAXIŞ

*Məqalədə XX əsrdə Naxçıvanda realist rəssam Bəhruz Kəngərli sənətinin istedadlı davamçılarından biri, respublikanın əməkdar rəssamı Şəmil Mustafayevin yaradıcılıq yolundan bəhs olunur. Onun Naxçıvan teatrında tamaşaya verdiyi klassik və müasir əsərlər xronoloji ardıcıllıqla göstərilir. Eyni zamanda Hüseyn İbrahimovun "Torpaq təslim olur", Novruz Gəncəlinin "Düşmənlər arxasında", Hüseyn Muxtarovun "Ailə namusu", Nikolay Qoqolun "Evlənmə", Georgi Mdivaninin "Vətən namusu" əsərlərinə verdiyi bədii quruluşlar təhlil olunur. Həmçinin Vətənimizin əsrarəngiz gözəlliklərini vəsf edən mənzərə, natürmort və bir-birindən baxımlı boyakarlıq və qrafika tablolarından söhbət açılır. Bunlarla yanaşı portret janrında yaratdığı sənət nümunələri: "Akademik Zərifə Əliyeva", "Prezident Heydər Əliyev", "Əcəmi Əbubəkir", "Şah İsmayıl Xətai", "Hacı Zeynalabdin Tağıyev", "Məmməd Səid Ordubadi", "Rəssam Səttar Bəhlulzadə", "Ustad Şəhriyar", "Hüseyn Cavid", Sovet İttifaqı qəhrəmanları – "Nəcəfqulu Rəfiyev", "Abbas Quliyev", realist rəssam "Bəhruz Kəngərli" və s. diqqət mərkəzinə çəkilməklə, beynəlxalq sərgilərdə müvəffəqiyyətlə iştirakı da məqalədə əks olunur.*

**Açar sözlər:** *Şəmil Mustafayev, rəssam, bədii tərtibat, portret, natürmort, mənzərə, qrafika, kompozisiya.*

**Giriş.** İyirminci əsrdə Naxçıvanda realist rəssam Bəhruz Kəngərli sənətinin ən istedadlı, simalarından biri də Azərbaycan Respublikasının Əməkdar rəssamı Şəmil Murtuz oğlu Mustafayevdir. O, 1929-cu il avqust ayının 3-də Ordubad şəhərində dünyaya gəlir. Şəmil Mustafayev Ordubad şəhərindəki M.T.Sidqi adına orta məktəbi bitirdikdən sonra, 1946-1951-ci illərdə Bakı şəhərində Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində təhsilini davam etdirir. Bakı Rəssamlıq məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra fəaliyyətini Naxçıvan teatrında davam etdirən Şəmil Mustafayev bu sənət məbədində bir çox tamaşalara uğurlu bədii quruluşlar verməklə, təsviri sənətin müxtəlif janrlarında yaddaqalan, cəlbedici və düşündürücü rəsm əsərləriylə diqqəti cəlb edir. Portret, peyzaj, kompozisiya, natürmort onun ən çox müraciət etdiyi janrlardandır. Ümumiyyətlə, o, seçdiyi mövzuları dağ-təbiət mənzərələrinin fonunda təqdim etməyə üstünlük verirdi. Rəssamın yaradıcılığında özünəməxsus, zəngin Naxçıvan təbiətinin fonunda rəsm edilən portretlər daha əzəmətli, qürurlu və baxımlıdır. Rəssamın rəsmlərində təbiətlə insanın vəhdətdə təqdimi, portret janrı ilə peyzaj janrının üzvü surətdə əlaqələndirilməsi, eyni zamanda rəsm vasitəsilə fikir ifadə edilməsi tamaşaçıların diqqətini cəlb edir. Rəssam portretlərini düşünülmüş, mənalı kompozisiya üzərində qurduğundan, tamaşaçı insanın fərdi aləmini, bəzən də tərcümeyi-halını təhlil etməyə müvafiq olur. Onun "Akademik Zərifə Əliyeva" portreti lirik planda çəkilmişdirsə, görkəmli dövlət xadimi "Prezident Heydər Əliyev" portretini özünəməxsus formada psixoloji planda yaratmaqla, dünyaşöhrətli prezidentimizin daxili mənəvi zənginliyini üzə çıxarmağa nail olmuşdur. Prezidentimizin mənəvi aləmi üçün səciyyəvi olan qürurlu baxışı portretdə xüsusilə çox ifadəlidir. İsti-soyuq rənglərin cəlbediciliyindən yaranan bu portretlərdə bədii təzadın obrazlara bənzərsiz bədii-psixoloji tutum verməsi rəssamın fərqləndirici-səciyyəvi xüsusiyyətləridir. Bir sözlə Şəmil Mustafayev portretlərini özünəməxsus çalarlarla zənginləşdirən sənətkarlarımızdandır.

Yaratdığı əsərlərinə diqqət yetirdikdə məlum olur ki, Şəmil Mustafayev yağlı boya, sulu boya və qrafika ilə işləməyə daha çox üstünlük vermişdir. Onun yağlı boya ilə çəkdiyi əsərlərində rənglərdən mükəmməl və münasib şəkildə istifadə etməsilə tablolarında bütövlüyün, tamlığın ərsəyə gəlməsinə nail olmuşdur. Sulu boya ilə çəkdiyi rəsm əsərlərində kompozisiya qurma bacarığını nümayiş etdirməsi onun yüksək sənətkarlıq imkanlarından xəbər verir. O, rəngkarlığın bütün növlərində fırçasını sınamış, ciddi axtarışları və tapıntıları ilə fərqlənən sənətkarlarımızdandır. Onun əsərlərində bədii forma, rənglərdən yerli-yerində istifadə, xarakterik obrazın daxili aləmini yüksəldən ciddi emosiya, tamaşaçı duyğularını oyadan keyfiyyətlər əsas yer tutur.

**Naxçıvan teatrında.** Şəmil Mustafayev Bakı şəhərində Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil aldığı illərdə də Naxçıvan teatrı ilə yaradıcılıq əlaqəsini genişləndirir. 1951-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirib təyinatla Gəncə şəhərinə göndərilən Şəmil Mustafayev həmin ildə doğma Naxçıvana qayıdır və Naxçıvan teatrında rəssamlıq fəaliyyətini davam etdirir. O, Naxçıvan teatrında İbrahim Həmzəyev, Səməd Mövləvi, İsa Musayev, Arif Ağayev, Adilə Quliyevanın quruluşlarında: “Xoş gəlmisiniz” (1948), “Əsli və Kərəm”(1948, Üzeyir Hacıbəyov), “Laçın” (1948-1950, Tələt Əyyubov), “Fitnə” (1949, Abdulla Şaiq), “Bahar” (1949, Məhəmmədhüseyn Təhmasib), “Müsibəti Fəxrəddin”, “Hacı Qəmbər” (1949, Nəcəf bəy Vəzirov), “Səadət çeşməsi” (1948-1949, Zeynal Xəlil), “Ailə namusu”(1949, 1952, Hüseyn Muxtarov), “Xoşbəxtlər” (1949-1950), “Aydınlıq” (1950, Sabit Rəhman), “Adaxlılar” (1950, Asəhməd Tokayev), “Eşq və intiqam”, “Dağlarda” (1950, Süleyman Sani Axundov), “Ürək çalanlar” (1950, rəssam Ə.Hüseynovla birgə, Məmməd Səid Ordubadi), “Solğun çiçəklər”, “1905-ci ildə” (1951, 1953, Cəfər Cabbarlı), “Torpaq təslim olur” (1951, Hüseyn İbranimov), “Düşmənlər arxasında” (1952, Novruz Gəncəli), “Evlənmə” (1952, Nikolay Qoqol), “Əlli yaşında cavan” (1954, Zülfüqar Hacıbəyov), “Vətən namusu” (1958, Georgi Mdivani) və digər əsərlərin tamaşalarına özünəməxsus tərzdə səhnə tərtibatı verir.

Şəmil Mustafayevin tamaşalara verdiyi bədii tərtibatlarda müasir üslub, yeni forma, yeni rəng çalarlarının axtarışı yaradıcılığında aktual məsələlərdən biri idi. Rəssamın bədii tərtibat verdiyi bir çox tamaşalar realist ənənələrə sadiqlik baxımından digər səhnə əsərləri ilə eynilik təşkil etsə də, rəssam əsərlərin səhnə təcəssümünün uğurlu alınması üçün əsərin ideyasının açılmasında müasir üslublardan, yeni formalardan, yeni rəng çalarlarından özünəməxsus tərzdə istifadə edərək tamaşaların mükəmməl alınmasına müvəffəq olur. Bunun bu yeniliyi teatr mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və vaxtaşırı “Şərq qapısı” qəzetində işıqlandırılırdı.

Yerli dramaturq Hüseyn İbrahimovun “Torpaq təslim olur” əsəri İbrahim Həmzəyevin quruluşunda (rəssam Şəmil Mustafayev) 1951-ci il noyabr ayının 27-də tamaşaya qoyulur [3, s. 565]. Əsərin tamaşaya qoyulması xüsusilə əhəmiyyətli idi. Tamaşada Böyük Vətən Müharibəsindən sonra Azərbaycan kəndində gedən quruculuq işlərindən bəhs edilir, kolxoz kəndinin yüksəlişi, əmək adamlarının mənəvi üstünlükləri mənalı bir şəkildə təsvir edilirdi. Əsərin tamaşaçılara düzgün çatdırılmasında teatrın yaradıcı heyəti səylə çalışmış və demək olar ki, öz məqsədlərinə nail olmuşlar [5, s. 159]. Tamaşada rejissor və rəssam işi vəhdət təşkil etdiyi üçün tamaşaçılar tərəfindən uğurla qarşılanır. Tamaşada respublikanın əməkdar artisti Zəroş Həmzəyeva Tərlan obrazını müvəffəqiyyətlə yaradır. Onun ifasında Tərlan fədakar, səmimi, sadə, doğma kolxozunun mənafeyi ilə yaşayan mahir bir pambıq ustasıdır [1].

Naxçıvan teatrında gənc rejissor Adilə Quliyevanın quruluşunda Novruz Gəncəlinin "Düşmənlər arxasında" əsəri 1952-ci ilin yanvar ayının 6-da tamaşaya qoyulur [3, s. 565]. Tamaşada İkinci Dünya Müharibəsi illərində Amerika inhisarçılarının ikiüzlülüyü, onların hitler faşizmi ilə müttəfiqliyi, yeni dünya müharibəsinə hazırlaşdıqları və bunlara qarşı sovet xalqlarının ümumi mübarizəsi əks olunurdu. Əsərin tamaşaya qoyulması haqqında "Şərq qapısı" qəzetində yazılır: "Naxçıvan teatrının kollektivi "Düşmənlər arxasında" əsərini müvəffəqiyyətlə tamaşaya qoymaqla geniş yaradıcılıq imkanlarına malik olduğunu bir daha sübut etdi [2, s. 72-73]. Tamaşaçılar tərəfindən rəğbətlə qarşılanan tamaşanın bədii tərtibatını rəssam Şəmil Mustafayev vermiş, musiqisini Məmməd Ələkbərov yazmışdır" [8, 9 yanvar 1952].

Həmin ilin 2 martında İsa Musayevin quruluşunda və rəssam Şəmil Mustafayevin bədii tərtibatında tamaşaya qoyulan Hüseyn Muxtarovun "Ailə namusu" ("Allah ailəsi") əsəridir [3, s. 565]. Sadə bir süjetə malik "Ailə namusu" adı ilə təqdim olunan əsərinin müəllifi sonralar Türkmənistana köçən, əslən azərbaycanlı Hüseyn Muxtarovdur. O, bu əsərində bir ailənin timsalında insanlığın vacib mənəvi-əxlaqi problemlərini önə çəkərək psixoloji reallıqlardan söhbət açır. Tamaşanın rəssamı Şəmil Mustafayevin dəsti-xətti, özünəməxsus iş tərzi tamaşanın kompozisiya quruluşunda, istifadə edilən rəng çalarlarında, ümumiyyətlə tamaşanın gedişində açıq şəkildə görünürdü. Tamaşa haqqında "Şərq qapısı" qəzetində dərc olunan rəydə yazılırdı: "Teatrın kollektivi tamaşanın uğurlu alınmasına nail olmuşdur. Rejissorun və bütün yaradıcı kollektivin öz vəzifəsinə tam məsuliyyətlə yanaşması hiss olunur" [4].

Teatrda rus yazıçısı və dramaturqu Nikolay Qoqolun vəfatının 100 illiyi münasibəti ilə ədibin "Evlənmə" pyesi 1952-ci ilin mart ayında, tamaşaya qoyulur. Pyesin quruluşunu gənc rejissor Arif Ağayev, bədii tərtibatını talantlı rəssam Şəmil Mustafayev vermişdilər [3, s. 198]. Səhnə tərtibatında realizm prinsiplərinə sadiq qalan rəssam istifadə etdiyi rənglərin ahənginə, səhnədə dekorların kompozisiya quruluşuna diqqətlə yanaşır, təsvir etdiyi mühitin daha real görünməsi üçün böyük səy göstərir. "Tərtibatda XIX əsr rus mühiti, məişəti, həyat tərzi real şəkildə göstərilmişdir. Mütləqiyyət üsul idarəsinin eybəcərliklərini ifşa edən bu tamaşada Mirhəsən Mirişli (Yaiçnitsa), Zəroş Həmzəyeva (Aqafiya Tixonovna), Əsəd Abutalıbov (Aniçkin), Kazım Hüseynov (Jivakin), Xədicə Qazıyeva (Fyokla), Yusif Haqverdiyev (Koçkaryov), Əkbər Qardaşbəyov (Podkolesin), Roza Cəfərxanova (Arina), Ağalar Əliyev (Stepan) maraqlı obrazlar yaratmışlar" [8, 14 mart 1952].

1958-ci ilin repertuarında yer alan Georgi Mdivaninin "Vətən namusu" əsəri rejissor İbrahim Həmzəyevin quruluşunda, rəssam Şəmil Mustafayevin bədii tərtibatında səhnə təcəssümünü tapır. Tamaşanın əsas ideyası olan vətənə sevgi ön planda verilmişdir. Tamaşa haqqında yazılan rəylərdə rəssamın işi yüksək dəyərləndirilərək yazılırdı: "Rəssam yaratdığı bədii tərtibatla realist səpkili təsvirə üstünlük vermiş və əsərdəki ideyaların ahəngdarlığına nail olmuşdur. Rəssamın dəsti-xəttinə xas olan rəng harmoniyası, mükəmməl kompozisiya quruluşu onun yeni axtarışlarından xəbər verirdi" [8, dekabr 1958; 7, 16 yanvar 1959].

**Rəssamın yaradıcılığında portret janrı.** Rəssam yaradıcılığında portret janrı xüsusilə diqqəti cəlb edir. O, görkəmli tarixi və ictimai şəxslərin, mədəniyyət xadimlərinin surətlərindən ibarət portret qalereyası yaratmışdır. Öz qəhrəmanlarına bəslədiyi səmimiyyəti qabarıq şəkildə ifadə etmək üçün sadə və anlaşıqlı təsvir vasitələrinə müraciət etmişdir. Tarixi şəxsiyyətlərin portretləri Ş.Mustafayevin ən yaxşı əsərləri sırasına daxildir. Rəssam portretlərini düşünülmüş, mənalı kompozisiya üzərində qurmuş, insanın fərdi aləmini, bəzən də tərcümeyihalını təhlil etməyə müvəffəq olmuşdur. Onun "Akademik Zərifə Əliyeva" portreti lirik planda

çəkilmişdirsə, görkəmli dövlət xadimi "Prezident Heydər Əliyev" portreti psixoloji planda yaradılmışdır. Heydər Əliyev portretində dünya şöhrətli, məşhur prezidentimizin mənəvi aləmi üçün səciyyəvi olan ümumiləşdirici keyfiyyətlər tapmaq mümkündür. Onun xüsusilə qürurlu baxışı çox ifadəlidir.

Rəssamın Əcəmi Əbubəkir, Şah İsmayıl Xətai, Bağır xan, Səttar xan, Hacı Zeynalabdin Tağıyev, Məmməd Səid Ordubadi, Rəssam Səttar Bəhlulzadə portretləri çox ustalıqla yaradılmışdır. "Rəssam Səttar Bəhlulzadənin portreti" rəssamın yaradıcılığına xas olan novatorluğun ən bariz nümunəsidir. Emalatxanada oturub düşünən, dərin yaradıcılıq axtarışları aparan sənətkarın profili mənalı, xəyala dalmış mavi gözləri nə qədər təbiidir. İntellektual qüvvəyə, dərin zəkaya malik olan bu obraz çox aydın, lakonik üsulda rəsm edilmişdir.

Rəssamın portretləri arasında dahi Şəhriyarın obrazı xüsusi yer tutur. Başını əli ilə tutub düşünən, xəyala dalan şairin üzü ciddi və kədərlidir. Bu ciddilik, təmkinlik, dünyanın haqsızlıqlarına qarşı səsini ucaldan şairin dünyabaxışından doğur. Rəssamın yaratdığı "Hüseyn Cavid", Sovet İttifaqı qəhrəmanları "Nəcəfqulu Rəfiyev", "Abbas Quliyev", realist rəssam "Bəhruz Kəngərli" portretləri də gözəl sənət əsərləridir.

Böyük ictimai-tərbiyəvi məzmuna, emosional təsir qüvvəsinə, ifadə gözəlliyinə, milli koloritə malik olan, müasirlik ruhu ilə aşılanan əsərlər yaratmaq Naxçıvan rəssamlarını daim düşündürmüşdür. Bu sahədə görkəmli fırça ustası Şəmil Mystafayevin yaradıcılıq nailiyyətləri xüsusilə diqqətəlayiqdir. Onun yaradıcılığında bütün janrlar – portret, mənzərə, natürmort, tematik şəkil və s. müvəffəqiyyətlə inkişaf etmişdir. Rəssam Azərbaycanın zəngin və rəngarəng həyatından götürülmüş qiymətli tematik şəkillər, mənzərələr də yaratmışdır. Rəssamın tematik şəkil janrı sahəsində qazandığı nailiyyətlər xüsusilə diqqətə layiqdir. Lirik, romantik, qəhrəmanlıq ruhunda yaradılmış tematik şəkillərdə müasir həyatın müxtəlif sahələri ilə əlaqədar olan əmək və məişət mövzuları, tarixi keçmişimizin şanlı səhifələri əks olunmuşdur.

**Rəssamın yaradıcılığında Vətən məhəbbəti sevgisi.** Şəmil Mustafayev "Dəstə kəndi", "Qızlar bulağı kompleksi", "Düylün kəndi", "Baba yurdu", "Bahar", "Duz karvanı" kimi əsərlərində həyata nikbin mövqedən yanaşmış, öz qəhrəmanlarının psixologiyası, aləmi, duyğuları ilə səsləşən parlaq və nikbin boyalara əl atmış, əsərlərin koloritini dekorativ və işıqlı rənglərin əlaqəsində qurmuşdur. O, hadisələrin cərəyan etdiyi mühiti, hava və işıq effektlərini inandırıcı vermiş, günəşli palitraya meyl göstərmişdir. Buna görə də onun tablolarında parlaq günəş işıqları bərq vurur, işıq-kölgə təzadları əşyaların həcmliyini nəzərə çarpdırır.

Bu cəhətlər rəssamın animalistik əsərlərində də nəzərə çarpır. Onun "Durna" silsiləsinə aid olan "Durna", "Vaşaq", "Ülvi məhəbbət – flaminqo" tablolarında işıq-kölgə təzadları, hava-işıq effektləri məharətlə işlənmişdir.

Şəmil Mustafayev təəssürat rəssamı olduğu üçün mənzərə və natürmort janrları üzrə də böyük nailiyyətlər əldə etmişdir. Məhz bunun sayəsində doğma təbiətin gözəlliyini, şəhər və kəndlərin yeni simasını lirik və şairanə boyalarla əks etdirilən maraqlı mənzərələr yaratmışdır. "Ş.Mustafayevin mənzərə əsərlərinin məzmununa görə iki qrupa bölmək mümkündür. Bunların bir qismi şəhər və sənaye motivləri ilə əlaqədardır. İkinci qismi isə kənd təbiətinə həsr olunan lirik mənzərələr daxildir" [6, s. 64].

Rəssam Naxçıvanın tarixi abidələrini, mənzərələrini təsvir edən çoxsaylı əsərləri vardır. O, təbiətin zəngin boyalarından, günün müxtəlif çalarlarından, ilin fəsillərindən aldığı təəssüratı əsərlərində məharətlə vermişdir. Onun "Cəmey məscidi", "Gülüstan türbəsi", "İmamzadə", "Culfa rayonunda Nəiminin qəbri", "Zorxana", "Sər şəhər", "Qarabağlar türbəsi"

mənzərələrində fərdi təəssüratlardan doğan hislər, həyəcanlar həlledici rol oynayır. Bu hislər isə vətən sevgisinin, onun tarixi abidələrinin mənzərə dilində ifadəsidir.

Rəssamın bədii kamilliklə ərsəyə gətirdiyi Əcəmi təxəyyülünün nəticəsi olan mənzərədə duyulan "Möminə xatun türbəsi" səmanın qürub mənzərəsi fonunda – köhnə evlərin arasından ucalan məqbərənin görüntüsü kifayət qədər cəlbedicidir. Həqiqətən də rəng təzadlarından uğurlu istifadə nəticəsində yaranan bu mənzərə izləyiciləri daha çox cəlb edir. Rəssamın Arpaçay su bəndinin tikintisinə həsr olunan "Arpaçay tikintisində" mənzərəsi tarixilik baxımdan dəyərli əsərlərdəndir. Məkana yüksəklikdən göz qoyan müəllif mənzərə janrının estetikasına müvafiq tablo yaratsa da, kompozisiyanı təşkil edən müxtəlif funksiyalı ayrıntıların timsalında inşaatçıların qurub-yaratmaq əzmini göstərməyə müvəffəq olmuşdur. Rəssamın uzaqdakı dağları və yaxınlıqdakı təpələri müxtəlif rəng çalarlarına bələməklə, məkanda davam edən quruculuq işlərinin qaynarlığını göstərmək istəyi, bütünlüklə tablonu monumental görkəm almasını şərtləndirmişdir.

Rəssamı ilhama gətirən Vətənin təbiət motivləri rəngarəngdir. O, Vətənin səfalı dağ mənzərələrini, meyvə bağlarını, baharın gözəlliyini, payızın qızılı rənglərini "Naxçıvanda payız" tablolarında dönə-dönə tərənnüm etmişdir. Mavi, göy, yaşıl, çəhrayı, ağ rəng çalarlarında işlənmiş həmin mənzərələr tamaşaçıda həyəcan doğurur.

Koloritdən güclü emosional təsir vasitəsi kimi istifadə edən, əsərlərini ahəngdar və dekorativ rəng çalarlarında işləyən rəssam, öz kolorit məharətini mənzərə təsvirlərində də nümayiş etdirmişdir. Doğma yurdu olan Naxçıvanın səfalı guşələrini fırçaya alan rəssam "Naxçıvanda payız", "Ordubad mənzərələri", əfsanəvi Batabatın mənzərəsini əks etdirən "Mən yaşamaq istəyirəm" lövhəsinin dili ilə sevdiyi torpağının gözəlliyini tamaşaçıya çatdırmaq istəməsidir.

**Rəssamın yaradıcılığında kənd mövzusu.** Kənd mövzusunu əks etdirən "Bulaq başında" əsəri xüsusilə yaddaqalandır. Rəssam iş gününü başa vurub bulaq başına yığışan qadınların surətini böyük səmimiyyətlə vermiş, əlvan libasların, səfalı təbiətin boyalarında xüsusi ahəng və gözəllik duya bilmişdir.

Meyvələrin, çiçəklərin, qabların və musiqi alətlərinin təsviri vasitəsilə insanın varlığa münasibətini əks etdirən Şəmil Mustafayev natürmort janrında həvəslə işlədiyi əsərlərində Azərbaycan torpağının bərəkəti, meyvələrin, çiçəklərin gözəlliyi, təbiətin zəngin boyaları haqqında canlı təsəvvür yaradırdı. "Ordubad meyvələri", "Naxçıvan gölləri" adlı natürmortlarda rəssam mavi, göy, bənövşəyi, yasəməni, çəhrayı rənglərdən istifadə etmişdir.

Rəssam yaradıcılığında həmişə sadə və anlaşıqlı təsvir vasitələrinə müraciət etmişdir. Bu səmimiyyət rəssamın "Milli geyimlər" silsiləsindən olan qızların portretlərində açaq-aydın görünür. Doğma xalqın adət-ənənələrini, rəngarəng libaslarını, incə naxışlarını ürəkdən sevən rəssam "Milli geyimlər" silsiləsindən olan qızların portretlərində yaratdığı obrazların ənənəvi aləmini fırçaya almışdır. "Kürdün gözəli" tablosundan baxan qaraca qızın ifadəli baxışlarında gənc qıza xas olan sadəlövhlüyü və səmimiyyəti incə ştrixlərlə canlandırmışdır.

**Nəticə.** Dəfələrlə respublikamızdan kənarda müxtəlif fərdi sərgilərdə çıxış edən rəssam Naxçıvan tarixini, adət-ənənələrini, mədəni irsini təbliğ etmiş, əsərləri böyük marağa səbəb olmuşdur. İran İslam Respublikasının Urmiyə şəhərində keçirilən sərgidə Şəmil Mustafayev kiçik qızıl, Şiraz şəhərində isə böyük qızıl medala layiq görülmüşdür.

Şəmil Mustafayev 1970-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunur. 1971-1976-cı illərdə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının sədri vəzifəsində işləmişdir. O, Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatına rəhbərlik etdiyi müddətdə

gənc rəssamlar qrupunun formalaşmasına çalışmış və istedadlı gəncləri rəssamlıq, xalçaçılıq, qrafika, heykəltəraşlıq sahələrində Bakı, Tiflis və Moskva rəssamlıq məktəblərində təhsil almalarına nail olur. Naxçıvan rəssamlarını müntəzəm olaraq İttifaq, respublika və fərdi sərgilərdə də iştirakına şərait yaratmışdır.

Rəssamın əsərləri 1973-1990-cı illərdə Moskva, Kiyev, Alma-Ata, Tbilisi şəhərlərində, respublikamız müstəqillik əldə etdikdən sonra Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının müxtəlif şəhərlərində nümayiş etdirilmişdir. Əsərləri Türkiyə, İran, Moskva, Kiyev, Alma-ata, Tifiis şəhərlərində, Heydər Əliyev Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Dövlət Rəsm Qalereyasında, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində, Məmməd Səid Ordubadinin Ev Muzeyində və bir çox şəxsi kolleksiyalarda mühafizə olunur.

2009-cu ildə Naxçıvan MR Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Şəmil Mustafayevin anadan olmasının 80 illiyi münasibəti ilə fərdi yaradıcılıq sərgisi keçirilir.

Şəmil Mustafayevin yaradıcılığı Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirilib. O, 1969-cu ildə "Azərbaycanın qabaqcıl maarif xadimi", 1969-cü ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi fəxri adına layiq görülmüşdür. 1970-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv seçilmişdir. 1971-1976-cı illərdə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının sədri olmuşdur. 2002-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar rəssamı adına layiq görülmüşdür. Rəssam 2010-cu il iyun ayının 15-də Naxçıvan şəhərində vəfat etmiş, öz vəsiyyəti ilə Ordubad şəhərindəki Malik İbrahim qəbiristanlığında dəfn olunmuşdur.

## ƏDƏBİYYAT

1. Hüseynzadə L., Nazim N. Torpaq təslim olur. "Şərq qapısı" qəz., 1952, 27 sentyabr.
2. Qəhrəmanov Ə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: MBM, 2004, 416 s.
3. Naxçıvan teatrının salnaməsi. Naxçıvan, 2010, 736 s.
4. Nazim N. Ailə namusu. "Şərq qapısı" qəz., 1952, 7 mart.
5. Rəhimli İ., Vəzirov C. Naxçıvan teatrı. Bakı: Aspoliqraf, 2008, 350 s.
6. Veysəlli Ü. Naxçıvan motivləri: Əməkdar rəssam Şəmil Mustafayevin əsərləri əsasında // Mədəni-maarif, 2010, №12.
7. "Kommunist" qəz.
8. "Şərq qapısı" qəz.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

## A SCIENTIFIC AND THEORETICAL VIEW ON THE COLOR WORLD OF SHAMIL MUSTAFAYEV

The article tells about the creative path of Shamil Mustafayev, one of the talented continuers of the art of the realist artist Bahruz Kengerli in Nakhchivan of the 20th century, an honored artist of the republic. The artistic design of classical and modern productions in the

Nakhchivan Theater, performed by him, is shown in chronological order. At the same time, the artistic design of the productions "The Land Surrenders" by Hussein Ibrahimov, "Pursuing Enemies" by Novruz Ganjali, "Family Honor" by Hussein Mukhtarov, "Marriage" by Nikolai Gogol, "Honor of the Country" by Georgiy Mdivani is analyzed. It also concerns landscapes, still life, paintings and graphic boards that glorify the mysterious beauties of our Motherland. In addition, artistic samples created in the portrait genre are presented: "Academician Zarifa Aliyeva", "President Heydar Aliyev", "Ajami Abubakir", "Shah Ismail Khetai", "Hadji Zeynalabdin Taghiyev", "Mammad Said Ordubadi", "Artist Sattar Bahlulzade", "Ustad Shahriyar", "Hussein Javid", Heroes of the Soviet Union – "Najafgulu Rafiyev", "Abbas Guliyev", realist artist "Bahruz Kengerli" and others are in the spotlight. The article also reflects successful participation in international exhibitions.

**Keywords:** *Shamil Mustafayev, artist, artistic concept, portrait, still life, landscape, graphics, composition.*

**Али Гахраманов**

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА ЦВЕТНОЙ МИР ШАМИЛЯ МУСТАФАЕВА

В статье рассказывается о творческом пути Шамиля Мустафаева, одного из талантливых продолжателей искусства художника-реалиста Бахруза Кенгерли в Нахчыване XX века, заслуженного художника республики. Выполненное им художественное оформление классических и современных постановок в Нахчыванском театре, показано в хронологическом порядке. В то же время анализируется художественной оформление постановок «Земля сдается» Гусейна Ибрагимова, «Преследуя врагов» Новруза Гянджали, «Семейная честь» Гусейна Мухтарова, «Женитьба» Николая Гоголя, «Честь страны» Георгия Мдивани Речь идет также о пейзажах, натюрмортах, картинах и графических табло, воспевающих загадочные красоты нашей Родины. Помимо этого, представлены художественные образцы, созданные в портретном жанре: «Академик Зарифа Алиева», «Президент Гейдар Алиев», «Аджами Абубекир», «Шах Исмаил Хетаи», «Хаджи Зейналабдин Тагиев», «Мамед Саид Ордубади», «Художник Саттар Бахлулзаде», «Устад Шахрияр», «Гусейн Джавид», герои Советского Союза – «Наджафгулу Рафиев», «Аббас Гулиев», художник-реалист «Бахруз Кенгерли» и др. находятся в центре внимания. В статье отражено также успешное участие в международных выставках.

**Ключевые слова:** *Шамиль Мустафаев, художник, художественный замысел, портрет, натюрморт, пейзаж, графика, композиция.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant16.09.2024**
**Son variant 14.10.2024**